# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 418** **Bakı şəhəri, 26 oktyabr 2020-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adlarının təsdiq edilməsi barədə" 2008-ci il 19 dekabr tarixli 277 nömrəli, "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın təsdiq edilməsi barədə" 2009-cu il 11 avqust tarixli 123 nömrəli və "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2010-cu il 1 dekabr tarixli 229 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 20 aprel tarixli 4 nömrəli Sərəncamının 2.5-ci bəndinin, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının 5.2-ci bəndinin və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115; 2009, № 2, maddə 153, № 4, maddə 282, № 7, maddələr 605, 610, № 8, maddələr 674, 680, № 10, maddələr 846, 852, 856; 2010, № 1, maddə 60, № 2, maddələr 146, 161, № 10, maddələr 906, 912, № 11, maddə 1040; 2011, № 1, maddə 66, № 5, maddə 446, № 9, maddələr 856, 862; 2012, № 5, maddə 479, № 8, maddə 818, № 10, maddə 1027, № 11, maddə 1205; 2013, № 1, maddə 74, № 8, maddələr 1014, 1037; 2014, № 1, maddə 69, № 3, maddə 313, № 6, maddə 736, № 7, maddə 919, № 10, maddə 1308; 2015, № 2, maddə 227, № 5, maddə 611, № 6, maddə 800, № 11, maddə 1414; 2016, № 1, maddə 171, № 2 (II kitab), maddə 382, № 3, maddə 608, № 4, maddələr 782, 831, № 5, maddə 955, № 7, maddə 1343, № 8, maddələr 1440, 1450, № 9, maddələr 1584, 1585, 1587, № 11, maddə 1976, № 12, maddə 2241; 2017, № 2, maddələr 282, 296, 311, № 5, maddə 972, № 8, maddə 1611, № 10, maddələr 1921, 1922, № 11, maddə 2186; 2018, № 2, maddə 336, № 3, maddələr 578, 625, 631, № 7 (II kitab), maddə 1655, № 10, maddələr 2142, 2161; 2019, № 1, maddə 160, № 3, maddələr 529, 563, 565, № 4, maddə 743, № 5, maddələr 944, 972, № 12, maddələr 2064, 2068, 2106; 2020, № 2, maddə 204, № 5, maddə 652) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "və Turizm" (hər beş halda) və "və turizm" sözləri çıxarılsın;

1.2. "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatı" sözlərindən sonra "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Aparatı" sözləri, "Naxçıvan Muxtar Respublikası üzrə" hissəsində "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparatı" sözlərindən sonra "Turizm Departamentinin Aparatı" sözləri, "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin regional bölmələri" sözlərindən sonra "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin regional turizm idarələri" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 676; 2015, № 7, maddə 880; 2016, № 9, maddə 1585; 2020, № 2, maddə 211) ilə təsdiq edilmiş "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın 2.2-ci bəndindən "və Turizm," sözləri çıxarılsın və həmin bəndə "Uşaq Problemləri üzrə Dövlət Komitəsinin," sözlərindən sonra "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin," sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1111; 2013, № 2, maddə 193, № 9, maddə 1129; 2014, № 4, maddə 443) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin 1.1-ci, 1.2-ci (hər iki halda), 1.5-ci bəndlərindən, 3.1.1-ci yarımbəndindən, 3.15-ci, 5.1-ci (hər üç halda) bəndlərindən, 5.4-cü bəndin ikinci cümləsindən, 5.6-cı bəndindən, 5.7-ci bəndin ikinci cümləsindən, 5.8-5.10-cu, 5.12-ci bəndlərindən, 5.13-cü bəndin ikinci cümləsindən "və Turizm" sözləri və 5.7-ci bəndin üçüncü cümləsindən "və turizm" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***